

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 174 (23.336)

*18 sentyabr 2019-cu il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 17-də Gürcüstanın İqtisadiyyat və Davamlı İnkişaf naziri xanım Natiya Turnavanı qəbul edib.

Natiya Turnava Gürcüstanın Baş Naziri Georgi Qaxarianın salamlarını dövlətimizin başçısına çatdırıb.

Görüşdə Azərbaycanla Gürcüstan arasında ikitərəfli dostluq münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi bildirilib, iqtisadi sahədə əməkdaşlığın ayrı-ayrı istiqamətlərdə genişlənməsindən məmnunluq ifadə olunub.

Söhbət zamanı iqtisadiyyatın şaxələndirilməsi hesabına ticarət dövriyyəsinin genişləndirilməsi, tranzit yükdaşımalarının həcminin artırılması məqsədilə Bakı-Tbilisi-Qars dəmir yolunun imkanlarından istifadə edilməsi məsələləri müzakirə edilib, energetika, sərmayə qoyuluşu, elektroenergetika, turizm sahələrində əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2019-cu il 17 sentyabr tarixli sərəncamları ilə Azərbaycan musiqi mədəniyyətinin inkişafında xidmətlərinə görə bir qrup şəxs təltif edilmişdir. Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikasının mədəniyyət işçiləri də vardır.

**Məmmədov Nüsrət Cəfər oğlu**

“Tərəqqi” medalı ilə

**Hüseynova Rüxsarə Hüseyn qızı**

“Əməkdar müəllim” fəxri adı ilə təltif edilmişlər.

## 15-ci Sərhəd zastavası üçün yeni xidmət və yaşayış kompleksi istifadəyə verilib

Muxtar respublikada ordu quruculuğu sahəsində görülən işlərin tərkib hissəsi olaraq “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının maddi-texniki bazası möhkəmləndirilmiş, hərtərəfli xidmət şəraiti yaradılmışdır. Müasir yaşayış və xidmət kompleksləri tikilərək istifadəyə verilmiş, sərhəd zastavaları yenidən qurulmuş, sərhədlərimizin etibarlı mühafizəsi təmin edilmişdir.

Sentyabrın 17-də “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının 15-ci Sərhəd zastavası üçün yeni xidmət və yaşayış kompleksi istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak etmişdir.

“Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının komandiri, general-mayor Niyaməddin Tağıyev Ali Məclisin Sədrinə raport vermişdir.

Ali Məclisin Sədri açılışı bildirən lenti kəsmişdir. Bildirilmişdir ki, ikimərtəbəli qərargah binasında xidməti otaqlar, sinif otağı, əsgər və zabit yataqxanası, yeməkxana və ərzaq anbarı vardır. Yataqxana mebel dəstləri ilə təmin edilmiş, məişət guşəsi yaradılmış,





soyutma və istilik sistemləri qurulmuşdur. Sinif otağında sərhəd xidmətinə aid ədəbiyyatlar və qəzetlər, eləcə də oxunması zəruri olan kitablar qoyulmuşdur.

Sərhədçi ailələri üçün tikilmiş yeni xidməti yaşayış binasında 4 mənzil yerləşir. Mənzillərdə lazımi kommunal-məişət şəraiti yaradılmış, mebel dəstləri qoyulmuş, xalça hədiyyə edilmişdir.

Ali Məclisin Sədri sərhədçi ailələri ilə görüşmüş, onları xidməti mənzillərlə təmin olunmaları münasibətilə təbrik edərək demişdir: Zastavada xidmət edən sərhədçi ailələri üçün hərtərəfli şərait yaradılmışdır. Bu gün yeni xidməti yaşayış binası istifadəyə verilir. Burada həm xidmət edən sərhədçilərin, həm də onların ailələrinin rahatlığı tam təmin olunacaqdır.

Sərhədçi ailələri adından çıxış edən Dilbər Bayramova yeni xidməti yaşayış binasının istifadəyə verilməsini göstərilən qayğının təzahürü kimi dəyərləndirmiş, bütün sərhədçi ailələri adından Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Sərhədçi anası Elza İbrahimova demişdir: Dövlətimiz tərəfindən hərbçi ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması sahəsində ardıcıl tədbirlər görülür. Bu tədbirlərin davamı kimi tikilən yeni yaşayış binası da övladlarımızın rahatlığına hesablanıb. Ana, valideyn olaraq rahatıq və fəxr edirik. Çünki bütün hərbi qulluqçular, o cümlədən övladım hər cür şəraiti olan mənzildə yaşayacaqdır.

Sonra şəxsi heyətlə görüş olmuşdur.

“Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının komandiri, general-mayor Niyaməddin Tağıyev çıxış edərək demişdir: “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasında ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilir. Diviziyanın maddi-texniki bazası möhkəmləndirilmiş, hərbi qulluqçuların xidməti və məişət şəraiti yaxşılaşdırılmışdır. 15-ci Sərhəd zastavası da ən müasir xidmət və yaşayış şəraiti ilə təmin edilmiş, ərazidə geniş quruculuq işləri aparılmışdır. Niyaməddin Tağıyev yaradılan şəraitə görə şəxsi heyət adından minnətdarlıq etmişdir.

Sonra şəxsi heyət “Hamı bir nəfər, bir nəfər hamı üçün” şüarını səsləndirmişdir.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov yeni xidmət və yaşayış kompleksinin istifadəyə verilməsi münasibətilə şəxsi heyəti təbrik etmiş, ümummilli liderimiz Heydər Əliyevin ***“Azərbaycanın dövlət sərhədi Azərbaycanın müstəqilliyini, suverenliyini nümayiş etdirən amildir”***, – fikrini xatırladaraq demişdir: Müstəqil Azərbaycan dövlətinin öz sərhədləri vardır. Azərbaycanın tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da beynəlxalq hüquq normaları çərçivəsində tanınan 204 kilometrdən artıq dövlət sərhədimiz “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyası tərəfindən mühafizə olunur. Sərhədin qorunması vacib amildir. Çünki sərhədləri etibarlı qorunan ölkədə inkişaf və sabitlik olar.

Qeyd olunmuşdur ki, muxtar respublikada sərhədlərimizin qorunması sahəsində ardıcıl tədbirlər görülür, şəxsi heyət üçün lazımi əsgəri-məişət şəraiti yaradılır. 15-ci Sərhəd zastavası da 1962-ci ildən uyğunlaşdırılmış binada fəaliyyət göstərirdi. Ona görə də ərazidə yenidənqurma işləri aparıldı, binalar tikildi, zastavaya ilk dəfə yol və qaz xətti çəkildi, həm əsgərlər, həm də sərhədçi ailələri üçün lazımi şərait yaradıldı. Bu da imkan verəcəkdir ki, əsgər və zabitlər xidmətlərini layiqincə yerinə yetirsinlər. Bütün bunlar Azərbaycanda ordu quruculuğu sahəsində görülən işlərin nəticəsidir. Dövlətimiz tərəfindən 20 ildən artıq qüsursuz xidmət edən hərbi qulluqçulara mənzillərin verilməsi, fərqlənənlərin dövlət mükafatları ilə təltif olunması, eyni zamanda ölkə Prezidentinin müvafiq Sərəncamı ilə bu ilin sentyabrından hərbi qulluqçuların əməkhaqlarının artırılması ordu quruculuğu sahəsində görülən işlərin tərkib hissəsi kimi mühüm əhəmiyyətə malikdir. Göstərilən qayğı “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasında da xidməti vəzifələrin layiqincə yerinə yetirilməsinə imkan verir.

Ali Məclisin Sədri demişdir: Ölkə Prezidentinin 2015-ci il 17 avqust tarixli Fərmanı ilə “Naxçıvan” Sərhəd Diviziyasının bazasında “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyası

*Ardı 2-ci səhifədə*





yaradılmış, vəzifə və səlahiyyətlər artırılmışdır. Qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi isə müasir xidmət və yaşayış şəraitinin yaradılmasını zəruri etmişdir. Bu gün bütün sərhəd zastavalarında "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyası və muxtar respublikanın yerli icra orqanları tərəfindən birgə təmir-bərpa və yenidənqurma işləri aparılır.

Ali Məclisin Sədri yeni xidmət və yaşayış kompleksinin istifadəyə verilməsi münasibətilə bir daha şəxsi heyəti təbrik etmişdir.

Əsgər Elvin Kamilli minnətdarlıq edərək demişdir: "Sərhədlərin qorunması Vətənin müdafiəsinin ayrılmaz tərkib hissəsidir. Muxtar respublikamızda sərhədlərimizin mühafizəsi üçün yaradılan şərait məsuliyyətimizi daha da artırır. Şəxsi heyətin yaşayışı, qidalanması və xidməti üçün bütün imkanlar var. Ona görə də yaradılan şəraitdən səmərəli istifadə edəcək, sərhədlərimizi etibarlı mühafizə



edərək göstərilən etimadı doğruldacağıq".

Tikinti işləri aparılarkən zastavanın ərazisində yeni vertolyot meydançası, müşahidə qülləsi, təlim şəhərciyi və yardımçı binalar da tikilmişdir. Ərazidə videonəzarət sistemi quraşdırılmış, istənilən hava şəraitində müşahidələrin aparılması təmin edilmişdir. Zastavaya 10 kilometr məsafədən yol və qaz xətti çəkilmiş, ərazi abadlaşdırılmış, yeni artezian quyusu qazılmış, meyvə bağı və yaşıllıqlar salınmışdır.

Ali Məclisin Sədri sərhəd xidmətinin təşkili ilə bağlı müvafiq tapşırıqlar vermişdir.

Həmin gün "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasına "NİVA" markalı iki xidməti avtomobil təqdim olunmuşdur.

Gətirilmiş ərzaq məhsulları zastavanın anbarına verilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Payız-qış mövsümünə hazırlıqla bağlı görülən işlər və qarşıda duran vəzifələr müzakirə edilib



*Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyində payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrə bağlı müşavirə keçirilib. Müşavirədə nazir Natəvan Qədimova məruzə ilə çıxış edərək bildirib ki, 2018-2019-cu illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar 2019-cu il sentyabrın 7-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilmiş müşavirədə nazirliyin də qarşısına bir sıra vəzifələr qoyulub.*

Diqqətə çatdırılıb ki, bu gün nazirliyin tabeliyində 30 muzey və muzeytipli müəssisə, 3 dövlət teatrı, 2 dövlət filarmoniyası, 1 Musiqi Kolleci, 26 uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəbi, 2 respublika əhəmiyyətli kitabxana, 400-dən çox klub, mədəniyyət evi, kitabxana, kitabxana filialları və digər mədəniyyət obyektləri fəaliyyət göstərir. Bu müəssisələrin payız-qış mövsümünə lazımi səviyyədə hazırlığı daim diqqət mərkəzindədir.

Vurğulanıb ki, mədəniyyət müəssisələrinin payız-qış mövsümünə hazırlığı ilə əlaqədar lazım olan yanacaq və mal-materiallardan, o cümlədən 21 min 850 litr dizel yanacağı, 54 kvadratmetr şüşə, 49 ədəd şifer, 420 kiloqram maye qaz, 312 metr polietilen, 31 neft sobası, 124 boru və 62 dirsəkdən ibarət siyahı hazırlanaraq aidiyyəti üzrə təqdim edilib.

Bildirilib ki, 2019-cu ildə Şərur rayonu üzrə rayon mərkəzində Tarix-Diyarşünaslıq Muzeyi, İbadulla kənd mədəniyyət evi, Kosacan kənd klubu və kitabxanası, Babək rayonunun Aşağı və Yuxarı Buzqov kənd kitabxana filialları və klubları, Ordubad rayonunun Dəstə kənd mədəniyyət evi və kitabxanası, Culfa rayonunun Qazançı kənd kitabxanası və mədəniyyət evi, Sədərək rayonunda kitabxana və Şahbuz Rayon Mədəniyyət Sarayı üçün yeni binalar inşa olunub. Bu mədəniyyət müəssisələrinin hamısı ümumi istilik sistemi ilə təmin edilərək istifadəyə verilib.

Qeyd olunub ki, ötən qış mövsümü ərzində mədəniyyət müəssisələrində heç bir fövqəladə hal baş verməyib, fasiləsiz iş rejimi təmin edilib, qarşıya çıxan problemlər isə vaxtında aradan qaldırılıb. Nazirliyin sistemindəki bütün müəssisələr növbəti payız-qış mövsümünə hazırlıqla əlaqədar işlərini düzgün qurmalı, bütün imkanlardan səmərəli istifadə edilməklə fasiləsiz iş rejimi təmin olunmalıdır.

Sonra mövzu ətrafında çıxışlar dinlənilib.

* * *

Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin kollegiya iclasında çıxış edən agentliyin direktoru Bəxtiyar İsmayılov bildirib ki, payız-qış mövsümünə hazırlıqla bağlı bir sıra tədbirlər həyata keçirilməkdədir.



Qeyd edilib ki, muxtar respublikada fəaliyyət göstərən 120 təsərrüfat subyektində davamlı olaraq müşahidə xarakterli monitorinqlər aparılıb, təsərrüfat subyektlərinə təhlükəsizlik sistemi, keyfiyyətini təsdiqləyən müvafiq müşayiətedici sənədləri mövcud olan elektrik, qaz cihazlarının satışının həyata keçirilməsi barədə bildirişlər və qazla işləyən məişət cihazları üçün təhlükəsiz istifadə üzrə təlimat təqdim olunub. Ümumilikdə, idxal olunan 7062 məişət qaz cihazına baxış keçirilib, təhlükəsizliyi təmin olunmayan 532 məişət qaz cihazının idxalına və satışına icazə verilməyib.

Vurğulanıb ki, müvafiq tapşırıqların yüksək səviyyədə icrası üçün qarşıdakı payız-qış mövsümündə agentlik tərəfindən standarta uyğun olmayan və sənaye üsulu ilə hazırlanmayan qızdırıcı elektrik və qaz cihazlarının muxtar respublikaya idxalına, satışına və istismarına yol verilməməsi barədə istehlakçılar və sahibkarların əvvəlcədən məlumatlandırılması, müvafiq bildirişlərin təsərrüfat subyektlərinə təqdim olunması təmin edilməlidir. Standarta uyğun olmayan və sənaye üsulu ilə hazırlanmayan qızdırıcı elektrik və qaz cihazlarının muxtar respublikaya idxalına, satışına və istismarına yol verilməməsi üçün tədbirlər, xüsusilə də monitorinqlər davam etdirilməlidir.

Bildirilib ki, muxtar respublikaya idxal olunacaq qaz cihazları bir qayda olaraq Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin Məişət qaz avadanlıqlarının sınaq laboratoriyasında yoxlamadan keçdikdən sonra idxalına, satışına və istismarına icazə verilə bilər.

Sonra çıxışlar olub.



Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyində keçirilən müşavirəni nazir Mais Əliyev açıb. Bildirib ki, nazirliyin İstehsalın təşkili, planlaşdırılması və geologiya şöbəsi aid idarə və müəssisələrlə birlikdə 2019-cu ilin payız mövsümündə həyata keçiriləcək yaşıllaşdırma və yeni meyvə bağlarının salınması, ötənilki əkinlərdə bərpa işlərinin planlı aparılması üçün sentyabr ayının sonunadək ərazilərin sxem-planlarını hazırlamalı, ting ehtiyatı müəyyənləşdirilməlidir. Bunun üçün texnika, maşın və mexanizmlər saz vəziyyətə gətirilməli, əkin işlərinin keyfiyyətinin yüksəldilməsi məqsədilə rayonlaşdırma işləri həyata keçirilməli, torpaqların münbitliyinin artırılması tədbirləri diqqət mərkəzində saxlanılmalıdır.

Bildirilib ki, Xüsusi mühafizə olunan təbiət əraziləri şöbəsi ilə birlikdə toxum tədarükü ciddi nəzarətdə saxlanılmalı, dağlıq və meşə fondu ərazilərində toxumla əkin işlərinin aparılmasına üstünlük verilməli, yaşıllıq sahələrində qurumuş ağacların təmizlənməsi və hərbi hissələrə verilməsi işi davam etdirilməlidir.

Adıçəkilən şöbə və aidiyyəti idarələr, o cümlədən digər idarə və müəssisələr qış mövsümündə biotexniki tədbirlərin icra edilməsi üçün vaxtında qida ehtiyatı yaratmalı, lazım olan ərazilərdə anbarlaşdırılmalıdır. Biotexniki tədbirlərin xüsusi mühafizə olunan təbiət əraziləri ilə yanaşı, onlara həmsərhəd ərazilərdə, yeni salınmış yaşıllıq sahələrində keçirilməsinə də ciddi önəm verilməlidir.

Diqqətə çatdırılıb ki, Bioloji mühit və təbii sərvətlərdən istifadənin təşkili şöbəsi tərəfindən yay-qış otlaq sahələrində ekoloji monitorinqlər aparılmalı, ətraf mühitin mühafizəsi qanunvericiliyinin tələblərinə uyğun olaraq tədbirlər icra edilməlidir. Yaylaq mövsümü başa çatdıqdan sonra oba ərazilərində təmizlik yaradılması diqqətdə saxlanılmalı və qaşarlarda dezinfeksiya işləri təşkil edilməli, xüsusilə qış otlaq sahələrində təsərrüfat fəaliyyətinin tənzimlənməsi üçün müvafiq tədbirlər həyata keçirilməlidir.

Müşavirə məruzə ətrafında çıxışlarla yekunlaşıb.

* * *



Naxçıvan Muxtar Respublikası Avtomobil Yolları Dövlət Agentliyində keçirilən kollegiya iclasını agentliyin direktoru Bəhruz Əsgərov açaraq məruzə ilə çıxış edib.

Bildirilib ki, qış aylarında ucqar kəndlərə hərəkətin fasiləsizliyinin təmin edilməsi, yolların qar və buzdan təmizlənməsi üçün istifadə olunan texnikaların saz vəziyyətə gətirilməsi, ehtiyat hissələri ilə təminat, qum ehtiyatının yaradılması istiqamətində kompleks tədbirlər həyata keçirilməlidir.

Qeyd olunub ki, leysan yağışları zamanı və soyuq qış mövsümündə avtomobil yollarında hərəkətin intensivliyinin təmin edilməsi məqsədilə bütün texnikalara baxış keçirilməli, avtomaşınlar üçün zəncir, avtoqreyderlər üçün bıçaq tədarük olunmalı, fəhlə və mexanizatorlar mövsümlə əlaqədar iş geyimləri ilə təmin edilməlidirlər. Ümumilikdə, 11 avtoqreyder, 31 özüyükünüboşaldan avtomaşın, 2 qartəmizləyən avtomaşın, 1 qarsovuran avtomaşın, 9 buldozer, 1 qumsəpən avtomaşın, 9 ekskavator, 6 yükləyici ekskavator və 5 avtoyükləyici muxtar respublikamızın ayrı-ayrı rayonlarının, ucqar dağ və sərhəd kəndlərinin avtomobil yollarında yarana biləcək hər hansı bir maneənin vaxtında aradan qaldırılması üçün tam hazır vəziyyətə gətirilməsi planlaşdırılıb. Həmçinin avtomobil yollarının buzdan təmizlənməsində mühüm rol oynayan qum tədarükü də diqqət mərkəzində saxlanılır. Ötən ildən 500 kubmetr ehtiyat yaradılıb və əlavə olaraq Şorsu massivindən xammal daşınaraq Naxçıvan və Şərur Asfalt-Beton zavodlarında qurulmuş qum-çınqıl karxanalarında üyüdülərək 1500 kubmetr ehtiyat yaradılması və digər tədbirlərin görülməsi nəzərdə tutulur.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib.

**Xəbərlər şöbəsi**

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya dövlət orqanlarında vakant vəzifələrin tutulması üçün müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər 18 sentyabr-18 oktyabr 2019-cu il tarixədək Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın internet portalında *(www.dqmk.nmr.az)* “şəxsi kabinet” bölməsinə daxil olaraq elektron müraciət formasını doldurmaqla qeydiyyatdan keçməlidirlər.

Namizədlər elektron ərizəni təsdiq etmək məqsədilə test imtahanında iştirak üçün qanunvericilikdə müəyyən edilmiş ödəniş məbləğini “şəxsi kabinet” vasitəsilə bank kartları ilə ödəyə bilərlər. Digər halda həmin məbləğ komissiyanın “Naxçıvanbank” Açıq Səhmdar Cəmiyyətindəki bank hesabına (AZ50NAXB36015000024840000AZN) ödənməli və ödənişə dair qəbz həftənin iş günləri saat $9^{00}$-dan $12^{30}$-dək və $14^{00}$-dan $17^{30}$-dək komissiyaya təqdim edilməlidir.

Mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçi vəzifələrinin tutulması üçün esse imtahanı və müsahibə keçiriləcəkdir.

Namizəd bir neçə vakant vəzifənin tutulması üçün müraciət edə bilər.

Namizədlər elektron müraciət formasını doldurarkən iddia etdikləri vakant vəzifələrin tutulma şərtlərini nəzərə almalıdırlar.

Qeydiyyatdan keçməkdə çətinlik çəkən namizədlər komissiyaya gəlməklə müraciət edə bilərlər.

***Maraqlananlar komissiyanın (036) 545-65-71 nömrəli əlaqə telefonu və ya dqmk@nakhchivan.az elektron poçt ünvanı vasitəsilə ətraflı məlumat əldə edə bilərlər.***

| Vəzifə kodu | Dövlət orqanı və struktur bölmə | Ştat sayı | Təsnifat | Vəzifə |
|---|---|---|---|---|
| | **1. Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyi** | | | |
| 910023 | Mətbuat və ictimaiyyətlə əlaqələr üzrə | 1 | 6 | baş inspektor |
| | **Cəmi:** | **1** | | |
| | **2. Naxçıvan Muxtar Respublikasının Fövqəladə Hallar Nazirliyi** | | | |
| 310413 | Mətbuat və ictimaiyyətlə əlaqələr üzrə | 1 | 6 | baş məsləhətçi |
| | **Cəmi:** | **1** | | |
| | **3. Naxçıvan Muxtar Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi** | | | |
| 200023 | Mətbuat və ictimaiyyətlə əlaqələr üzrə | 1 | 6 | baş məsləhətçi |
| 209403 | Ətraf mühit və təbii sərvətlərdən istifadəyə dövlət nəzarəti şöbəsi. Şərur rayonu üzrə | 1 | 7 | baş məsləhətçi |
| 202405 | Ətraf mühit və təbii sərvətlərdən istifadəyə dövlət nəzarəti şöbəsi. Babək rayonu üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 204406 | Ətraf mühit və təbii sərvətlərdən istifadəyə dövlət nəzarəti şöbəsi. Ordubad rayonu üzrə | 1 | 7 | məsləhətçi |
| 203406 | Ətraf mühit və təbii sərvətlərdən istifadəyə dövlət nəzarəti şöbəsi. Culfa rayonu üzrə | 1 | 7 | məsləhətçi |
| 206406 | Ətraf mühit və təbii sərvətlərdən istifadəyə dövlət nəzarəti şöbəsi. Kəngərli rayonu üzrə | 1 | 7 | məsləhətçi |
| 205406 | Ətraf mühit və təbii sərvətlərdən istifadəyə dövlət nəzarəti şöbəsi. Şahbuz rayonu üzrə | 1 | 7 | məsləhətçi |
| 207406 | Ətraf mühit və təbii sərvətlərdən istifadəyə dövlət nəzarəti şöbəsi. Sədərək rayonu üzrə | 1 | 7 | məsləhətçi |
| | **Cəmi:** | **8** | | |
| | **4. Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi** | | | |
| | **4.1. Dövlət Əmək Müfəttişliyi Xidməti** | | | |
| 211013 | Əməyin mühafizəsi məsələlərinə nəzarət və istehsalatda baş vermiş bədbəxt hadisələrin təhqiqi sektoru. Baş əmək müfəttişi | 1 | 7 | baş məsləhətçi |
| 211016 | Əməyin mühafizəsi məsələlərinə nəzarət və istehsalatda baş vermiş bədbəxt hadisələrin təhqiqi sektoru. Əmək müfəttişi | 2 | 7 | məsləhətçi |
| 211033 | Əməyin sosial-hüquq məsələləri üzrə nəzarət sektoru. Baş əmək müfəttişi | 1 | 7 | baş məsləhətçi |
| | **4.2. Dövlət Məşğulluq Xidməti** | | | |
| 219003 | Şərur Rayon Məşğulluq Mərkəzi | 1 | 7 | baş məsləhətçi |
| 214003 | Ordubad Rayon Məşğulluq Mərkəzi | 1 | 7 | baş məsləhətçi |
| 215003 | Şahbuz Rayon Məşğulluq Mərkəzi | 1 | 7 | baş məsləhətçi |
| 217006 | Sədərək Rayon Məşğulluq Mərkəzi | 1 | 7 | məsləhətçi |
| | **4.3. Dövlət Sosial Təminat Xidməti** | | | |
| 218163 | Naxçıvan Şəhər Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial müavinətlər və sosial yardımlar sektoru | 1 | 7 | baş məsləhətçi |
| 219013 | Şərur Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial müavinətlər və sosial yardımlar sektoru | 1 | 7 | baş məsləhətçi |
| 219025 | Şərur Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial xidmətlər sektoru | 2 | 7 | aparıcı məsləhətçi |
| 219036 | Şərur Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Mühasibat uçotu və təsərrüfat sektoru | 1 | 7 | məsləhətçi-mühasib |
| 212013 | Babək Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial müavinətlər və sosial yardımlar sektoru | 1 | 7 | baş məsləhətçi |
| 212025 | Babək Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial xidmətlər sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| 212036 | Babək Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Mühasibat uçotu və təsərrüfat sektoru | 1 | 7 | məsləhətçi-mühasib |
| 214013 | Ordubad Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial müavinətlər və sosial yardımlar sektoru | 1 | 7 | baş məsləhətçi |
| 214036 | Ordubad Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Mühasibat uçotu və təsərrüfat sektoru | 1 | 7 | məsləhətçi-mühasib |
| 213013 | Culfa Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial müavinətlər və sosial yardımlar sektoru | 1 | 7 | baş məsləhətçi |
| 213023 | Culfa Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial xidmətlər sektoru | 1 | 7 | baş məsləhətçi |
| 216013 | Kəngərli Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial müavinətlər və sosial yardımlar sektoru | 1 | 7 | baş məsləhətçi |
| 216023 | Kəngərli Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial xidmətlər sektoru | 1 | 7 | baş məsləhətçi |
| 216036 | Kəngərli Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Mühasibat uçotu və təsərrüfat sektoru | 1 | 7 | məsləhətçi-mühasib |
| 215016 | Şahbuz Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial müavinətlər və sosial yardımlar sektoru | 2 | 7 | məsləhətçi |
| 217013 | Sədərək Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial müavinətlər, sosial yardımlar və sosial xidmətlər sektoru | 2 | 7 | baş məsləhətçi |
| 217036 | Sədərək Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Mühasibat uçotu və təsərrüfat sektoru | 1 | 7 | məsləhətçi-mühasib |
| | **4.4. Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidməti** | | | |
| 210113 | Tibbi-sosial ekspertiza sektoru | 1 | 7 | baş məsləhətçi |
| 210123 | Funksional-diaqnostika və reabilitasiya sektoru | 1 | 7 | baş məsləhətçi |
| 210124 | Funksional-diaqnostika və reabilitasiya sektoru | 1 | 7 | böyük məsləhətçi |
| | **Cəmi:** | **31** | | |
| | **5. Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman Nazirliyi** | | | |
| 220303 | Mətbuat və ictimaiyyətlə əlaqələr üzrə | 1 | 6 | baş məsləhətçi |
| 224003 | Ordubad Rayon Gənclər və İdman İdarəsi | 1 | 7 | baş məsləhətçi |
| 224016 | Ordubad Rayon Gənclər və İdman İdarəsi | 1 | 7 | məsləhətçi-mühasib |
| 223016 | Culfa Rayon Gənclər və İdman İdarəsi | 1 | 7 | məsləhətçi-mühasib |
| 226016 | Kəngərli Rayon Gənclər və İdman İdarəsi | 1 | 7 | məsləhətçi-mühasib |
| 225003 | Şahbuz Rayon Gənclər və İdman İdarəsi | 1 | 7 | baş məsləhətçi |
| 225016 | Şahbuz Rayon Gənclər və İdman İdarəsi | 1 | 7 | məsləhətçi-mühasib |
| 227016 | Sədərək Rayon Gənclər və İdman İdarəsi | 1 | 7 | məsləhətçi-mühasib |
| | **Cəmi:** | **8** | | |
| | **6. Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi** | | | |
| 242115 | Babək Rayon Maliyyə İdarəsi. Xəzinə əməliyyatı sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| 244203 | Ordubad Rayon Maliyyə Şöbəsi. Xəzinə əməliyyatının uçotu sektoru | 1 | 7 | baş məsləhətçi |
| 244105 | Ordubad Rayon Maliyyə Şöbəsi. Xəzinə əməliyyatı sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| 244115 | Ordubad Rayon Maliyyə Şöbəsi. Büdcə proqnozu və iqtisadi təhlil sektoru. Gəlirlərin proqnozu üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 243105 | Culfa Rayon Maliyyə Şöbəsi. Xəzinə əməliyyatı sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| 243125 | Culfa Rayon Maliyyə Şöbəsi. Büdcə proqnozu və iqtisadi təhlil sektoru. Gəlirlərin proqnozu üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 246105 | Kəngərli Rayon Maliyyə Şöbəsi. Xəzinə əməliyyatı və xəzinə əməliyyatının uçotu sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| 246115 | Kəngərli Rayon Maliyyə Şöbəsi. Büdcə proqnozu və iqtisadi təhlil sektoru. Gəlirlərin proqnozu üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 245105 | Şahbuz Rayon Maliyyə Şöbəsi. Xəzinə əməliyyatı və xəzinə əməliyyatının uçotu sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| 245113 | Şahbuz Rayon Maliyyə Şöbəsi. Büdcə proqnozu və iqtisadi təhlil sektoru | 1 | 7 | baş məsləhətçi |
| 247113 | Sədərək Rayon Maliyyə Şöbəsi. Büdcə proqnozu və iqtisadi təhlil sektoru | 1 | 7 | baş məsləhətçi |
| 247125 | Sədərək Rayon Maliyyə Şöbəsi. Büdcə proqnozu və iqtisadi təhlil sektoru. Gəlirlərin proqnozu üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| | **Cəmi:** | **12** | | |
| | **7. Naxçıvan Muxtar Respublikasının Mədəniyyət Nazirliyi** | | | |
| 250023 | Mətbuat və ictimaiyyətlə əlaqələr üzrə | 1 | 6 | baş məsləhətçi |
| 258007 | Naxçıvan Şəhər Mədəniyyət Şöbəsi | 1 | 7 | baş mühasib |
| 259007 | Şərur Rayon Mədəniyyət Şöbəsi | 1 | 7 | baş mühasib |
| 254016 | Ordubad Rayon Mədəniyyət Şöbəsi | 1 | 7 | məsləhətçi |
| 253007 | Culfa Rayon Mədəniyyət Şöbəsi | 1 | 7 | baş mühasib |
| 253016 | Culfa Rayon Mədəniyyət Şöbəsi | 1 | 7 | məsləhətçi |
| 256016 | Kəngərli Rayon Mədəniyyət Şöbəsi | 1 | 7 | məsləhətçi |
| 255007 | Şahbuz Rayon Mədəniyyət Şöbəsi | 1 | 7 | baş mühasib |
| 255016 | Şahbuz Rayon Mədəniyyət Şöbəsi | 1 | 7 | məsləhətçi |
| 257007 | Sədərək Rayon Mədəniyyət Şöbəsi | 1 | 7 | baş mühasib |
| | **Cəmi:** | **10** | | |
| | **8. Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi** | | | |
| 290023 | Mətbuat və ictimaiyyətlə əlaqələr üzrə | 1 | 6 | baş məsləhətçi |
| 299107 | Şərur Rayon Təhsil Şöbəsi | 1 | 7 | baş mühasib |
| 292105 | Babək Rayon Təhsil Şöbəsi | 1 | 7 | aparıcı məsləhətçi |
| 294107 | Ordubad Rayon Təhsil Şöbəsi | 1 | 7 | baş mühasib |
| 294103 | Ordubad Rayon Təhsil Şöbəsi | 1 | 7 | baş məsləhətçi |
| 293125 | Culfa Rayon Təhsil Şöbəsi. Təhsilin idarə olunmasının məlumat sistemləri üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 296107 | Kəngərli Rayon Təhsil Şöbəsi | 1 | 7 | baş mühasib |
| 295107 | Şahbuz Rayon Təhsil Şöbəsi | 1 | 7 | baş mühasib |
| 295105 | Şahbuz Rayon Təhsil Şöbəsi | 1 | 7 | aparıcı məsləhətçi |
| 297107 | Sədərək Rayon Təhsil Şöbəsi | 1 | 7 | baş mühasib |
| 297103 | Sədərək Rayon Təhsil Şöbəsi | 1 | 7 | baş məsləhətçi |
| 297125 | Sədərək Rayon Təhsil Şöbəsi. Təhsilin idarə olunmasının məlumat sistemləri üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| | **Cəmi:** | **12** | | |
| | **9. Naxçıvan Muxtar Respublikasının Dövlət Gömrük Komitəsi** | | | |
| 990023 | Mətbuat və ictimaiyyətlə əlaqələr üzrə | 1 | 6 | baş məsləhətçi |
| | **Cəmi:** | **1** | | |
| | **10. Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsi** | | | |
| 454006 | Ordubad Rayon İdarəsi | 1 | 7 | məsləhətçi |
| 456006 | Kəngərli Rayon İdarəsi | 1 | 7 | məsləhətçi |
| | **Cəmi:** | **2** | | |

| | | | | |
|---|---|---|---|---|
| 11. Naxçıvan Muxtar Respublikasının Dövlət Statistika Komitəsi | | | | |
| 11.1. Şərur Rayon Statistika İdarəsi | | | | |
| 399003 | Statistika və təhlil şöbəsi | 1 | 7 | baş məsləhətçi |
| 399214 | Düdəngə kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | böyük məsləhətçi |
| 399494 | Maxta kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | böyük məsləhətçi |
| 399584 | Püsyan kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | böyük məsləhətçi |
| 399114 | Yengicə kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | böyük məsləhətçi |
| 399224 | Zeyvə kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | böyük məsləhətçi |
| 399505 | Axaməd kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 399355 | Aşağı Aralıq kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 399255 | Aşağı Yaycı kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 399575 | Çomaxtur kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 399395 | Dərəkənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 399215 | Düdəngə kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 399425 | Ələkli kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 399265 | Gümüşlü kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 399135 | Xələc kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 399205 | Mahmudkənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 399585 | Püsyan kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 399365 | Siyaqut kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 399115 | Yengicə kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 399275 | Yuxarı Yaycı kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 399546 | Arbatan kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | məsləhətçi |
| 399296 | Həmzəli kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | məsləhətçi |
| 399626 | Tənənəm kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | məsləhətçi |
| 399616 | Yeni Havuş kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | məsləhətçi |
| 11.2. Babək Rayon Statistika İdarəsi | | | | |
| 392007 | Aparat | 1 | 7 | baş məsləhətçi-baş mühasib |
| 392224 | Qahab kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | böyük məsləhətçi |
| 392264 | Zeynəddin kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | böyük məsləhətçi |
| 392205 | Nəzərabad kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 392225 | Qahab kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 392346 | Yuxarı Buzqov kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | məsləhətçi |
| 392356 | Gərməçataq kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | məsləhətçi |
| 392376 | Göynük kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | məsləhətçi |
| 11.3. Ordubad Rayon Statistika İdarəsi | | | | |
| 394007 | Aparat | 1 | 7 | baş məsləhətçi-baş mühasib |
| 394006 | Statistika və təhlil şöbəsi | 1 | 7 | məsləhətçi |
| 394103 | Ordubad şəhər inzibati ərazi dairəsi üzrə | 1 | 7 | baş məsləhətçi |
| 394104 | Ordubad şəhər inzibati ərazi dairəsi üzrə | 1 | 7 | böyük məsləhətçi |
| 394194 | Vənənd kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | böyük məsləhətçi |
| 394145 | Aşağı Əylis kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 394255 | Aza kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 394325 | Biləv kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 394115 | Gənzə kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 394275 | Sabirkənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 394235 | Unus kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 394205 | Xanağa kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 394165 | Yuxarı Əndəmic kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 394135 | Yuxarı Əylis kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 394346 | Bist kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | məsləhətçi |
| 394316 | Çənnəb kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | məsləhətçi |
| 394296 | Düylün kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | məsləhətçi |
| 394376 | Gilançay kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | məsləhətçi |
| 394366 | Xurs kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | məsləhətçi |
| 394356 | Nəsirvaz kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | məsləhətçi |
| 394386 | Parağaçay qəsəbə inzibati ərazi dairəsi üzrə | 1 | 7 | məsləhətçi |
| 11.4. Culfa Rayon Statistika İdarəsi | | | | |
| 393103 | Culfa şəhər inzibati ərazi dairəsi üzrə | 1 | 7 | baş məsləhətçi |
| 393205 | Xanəgah kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 393136 | Şurud kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | məsləhətçi |
| 11.5. Kəngərli Rayon Statistika İdarəsi | | | | |
| 396005 | Statistika və təhlil şöbəsi | 1 | 7 | aparıcı məsləhətçi |
| 396006 | Statistika və təhlil şöbəsi | 2 | 7 | məsləhətçi |
| 396103 | Qıvraq qəsəbə inzibati ərazi dairəsi üzrə | 1 | 7 | baş məsləhətçi |
| 396133 | Qarabağlar kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | baş məsləhətçi |
| 396104 | Qıvraq qəsəbə inzibati ərazi dairəsi üzrə | 1 | 7 | böyük məsləhətçi |
| 396124 | Şahtaxtı kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | böyük məsləhətçi |
| 396154 | Xok kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | böyük məsləhətçi |
| 396115 | Qabıllı kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 396185 | Xıncab kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 396166 | Yeni Kərki kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | məsləhətçi |
| 11.6. Şahbuz Rayon Statistika İdarəsi | | | | |
| 395007 | Aparat | 1 | 7 | baş məsləhətçi-baş mühasib |
| 395005 | Statistika və təhlil şöbəsi | 1 | 7 | aparıcı məsləhətçi |
| 395006 | Statistika və təhlil şöbəsi | 1 | 7 | məsləhətçi |
| 395104 | Şahbuz şəhər inzibati ərazi dairəsi üzrə | 1 | 7 | böyük məsləhətçi |
| 395225 | Şahbuzkənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 395196 | Gömür kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | məsləhətçi |
| 395156 | Güney Qışlaq kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | məsləhətçi |
| 395136 | Nursu kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | məsləhətçi |
| 395316 | Şada kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | məsləhətçi |
| 395266 | Sələsüz kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | məsləhətçi |
| 395286 | Türkeş kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | məsləhətçi |
| 11.7. Sədərək Rayon Statistika İdarəsi | | | | |
| 397003 | Statistika və təhlil şöbəsi | 1 | 7 | baş məsləhətçi |
| 397114 | Sədərək kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | böyük məsləhətçi |
| 397125 | Qaraağac kənd inzibati ərazi dairəsi üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| | **Cəmi:** | **81** | | |
| 12. Naxçıvan Muxtar Respublikasının Dövlət Sosial Müdafiə Fondu | | | | |
| 498805 | Naxçıvan Şəhər Şöbəsi. Pensiyaların təyinatı sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| 498605 | Naxçıvan Şəhər Şöbəsi. Sosial sığorta sektoru | 2 | 7 | aparıcı məsləhətçi |
| 498606 | Naxçıvan Şəhər Şöbəsi. Sosial sığorta sektoru | 1 | 7 | məsləhətçi |
| 499906 | Şərur Rayon Şöbəsi. Maliyyə-uçot sektoru | 4 | 7 | məsləhətçi-mühasib |
| 499806 | Şərur Rayon Şöbəsi. Pensiyaların təyinatı sektoru | 2 | 7 | məsləhətçi |
| 499605 | Şərur Rayon Şöbəsi. Sosial sığorta sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| 499606 | Şərur Rayon Şöbəsi. Sosial sığorta sektoru | 1 | 7 | məsləhətçi |
| 492906 | Babək Rayon Şöbəsi. Maliyyə-uçot sektoru | 1 | 7 | məsləhətçi-mühasib |
| 492805 | Babək Rayon Şöbəsi. Pensiyaların təyinatı sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| 492605 | Babək Rayon Şöbəsi. Sosial sığorta sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| 492606 | Babək Rayon Şöbəsi. Sosial sığorta sektoru | 1 | 7 | məsləhətçi |
| 494906 | Ordubad Rayon Şöbəsi. Maliyyə-uçot sektoru | 2 | 7 | məsləhətçi-mühasib |
| 494806 | Ordubad Rayon Şöbəsi. Pensiyaların təyinatı sektoru | 2 | 7 | məsləhətçi |
| 494605 | Ordubad Rayon Şöbəsi. Sosial sığorta sektoru | 2 | 7 | aparıcı məsləhətçi |
| 494606 | Ordubad Rayon Şöbəsi. Sosial sığorta sektoru | 1 | 7 | məsləhətçi |
| 493906 | Culfa Rayon Şöbəsi. Maliyyə-uçot sektoru | 1 | 7 | məsləhətçi-mühasib |
| 493606 | Culfa Rayon Şöbəsi. Sosial sığorta sektoru | 1 | 7 | məsləhətçi |
| 496906 | Kəngərli Rayon Şöbəsi. Maliyyə-uçot sektoru | 2 | 7 | məsləhətçi-mühasib |
| 496805 | Kəngərli Rayon Şöbəsi. Pensiyaların təyinatı sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| 496605 | Kəngərli Rayon Şöbəsi. Sosial sığorta sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| 495906 | Şahbuz Rayon Şöbəsi. Maliyyə-uçot sektoru | 2 | 7 | məsləhətçi-mühasib |
| 495805 | Şahbuz Rayon Şöbəsi. Pensiyaların təyinatı sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| 495605 | Şahbuz Rayon Şöbəsi. Sosial sığorta sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| 497805 | Sədərək Rayon Şöbəsi. Pensiyaların təyinatı sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| 497605 | Sədərək Rayon Şöbəsi. Sosial sığorta sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| 497606 | Sədərək Rayon Şöbəsi. Sosial sığorta sektoru | 1 | 7 | məsləhətçi |
| 497906 | Sədərək Rayon Şöbəsi. Maliyyə-uçot sektoru | 1 | 7 | məsləhətçi-mühasib |
| | **Cəmi:** | **37** | | |
| 13. Naxçıvan Muxtar Respublikasının Auksion Mərkəzi | | | | |
| 540013 | Aparat | 1 | 7 | baş məsləhətçi |
| | **Cəmi:** | **1** | | |
| 14. Naxçıvan Muxtar Respublikasının Ağır Cinayətlər Məhkəməsi | | | | |
| 710005 | Aparat | 1 | 6 | hakim köməkçisi |
| 710116 | Məhkəmə iclas katibi | 2 | 6 | məsləhətçi |
| | **Cəmi:** | **3** | | |
| 15. Naxçıvan Muxtar Respublikasının Hərbi Məhkəməsi | | | | |
| 800005 | Aparat | 1 | 6 | hakim köməkçisi |
| 800106 | Məhkəmə iclas katibi | 1 | 6 | məsləhətçi |
| | **Cəmi:** | **2** | | |
| 16. Naxçıvan Muxtar Respublikasının İnzibati-İqtisadi Məhkəməsi | | | | |
| 810005 | Aparat | 1 | 6 | hakim köməkçisi |
| 810116 | Aparat | 1 | 6 | məsləhətçi |
| | **Cəmi:** | **2** | | |
| 17. Şərur Rayon Məhkəməsi | | | | |
| 790104 | Aparat | 1 | 7 | böyük məsləhətçi |
| 790005 | Aparat | 1 | 7 | hakim köməkçisi |
| 790106 | Aparat. Məhkəmə iclas katibi | 1 | 7 | məsləhətçi |
| | **Cəmi:** | **3** | | |
| 18. Babək Rayon Məhkəməsi | | | | |
| 720005 | Aparat | 2 | 7 | hakim köməkçisi |
| 720106 | Məhkəmə iclas katibi | 1 | 7 | məsləhətçi |
| | **Cəmi:** | **3** | | |
| 19. Ordubad Rayon Məhkəməsi | | | | |
| 740005 | Aparat | 1 | 7 | hakim köməkçisi |
| | **Cəmi:** | **1** | | |
| 20. Culfa Rayon Məhkəməsi | | | | |
| 730104 | Aparat | 1 | 7 | böyük məsləhətçi |
| | **Cəmi:** | **1** | | |
| 21. Kəngərli Rayon Məhkəməsi | | | | |
| 760104 | Aparat | 1 | 7 | böyük məsləhətçi |
| 760106 | Məhkəmə iclas katibi | 1 | 7 | məsləhətçi |
| | **Cəmi:** | **2** | | |
| 22. Sədərək Rayon Məhkəməsi | | | | |
| 770005 | Aparat | 1 | 7 | hakim köməkçisi |
| 770106 | Məhkəmə iclas katibi | 1 | 7 | məsləhətçi |
| | **Cəmi:** | **2** | | |
| | **Yekun:** | **224** | | |

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir
və onlar geri qaytarılmır

Nömrəyə məsul: Gülcamal Tahirova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və
Ədəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 628